**UOT 81**
**https://doi.org/10.59849/2311-8482.2025.1.64**

**KÖNÜL SƏMƏDOVA***

# ALİ TƏHSİLDƏ KEYFİYYƏT ANLAYIŞI

*Son dövrlərdə bir çox təhsil mütəxəssisi «keyfiyyət» anlayışını təhsildə xüsusi önə çəkir. Bu diqqət təsadüfi deyil. Təhsildə keyfiyyət, təhsil müəssisələrinin əsas dəyərlərini və ideallarını qoruyub saxlamağı ifadə edir. Buraya biliklərin ödənişsiz yayılması və həqiqətin müstəqil axtarışı daxildir. Təhsilin keyfiyyətinin artırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir: Avropada bu mövzuda akademik qiymətləndirmə komissiyası yaradılıb, müxtəlif ölkələrdə, o cümlədən ölkəmizdə, beynəlxalq elmi konfranslar və simpoziumlar təşkil edilir. Dünya təcrübəsinə və təhsil sistemimizin keçmişdə mövcud olub uğurla tətbiq edilmiş iş metodlarına əsaslanaraq, təhsil məzmunu təkmilləşdirilir, keyfiyyətin idarə olunmasına xüsusi diqqət ayrılır, təlim prosesi optimallaşdırılır və pedaqoji kadr hazırlığı daha da yaxşılaşdırılır.*

***Açar sözlər:*** *Ali təhsildə keyfiyyət, keyfiyyət və kəmiyyətin mütənasibliyi, təhsil idarəçiliyi, akademik göstərici, yüksək standartlı ali təhsil*

## Giriş

Prof. T.Hacıyeva "Təhsilin keyfiyyəti nədir?", "O, necə müəyyən olunur?", "Təhsilin keyfiyyətini necə idarə etmək olar?" sualları ətrafında öz fikirlərini aşağıdakı kimi verir: "...təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Eyni zamanda, keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənməyib onun yaxşılaşması və idarə olunması problemini də həll etmək olar. Azərbaycan Respublikasının ümumi təhsil sistemində belə bir qiymətləndirmə sistemi yaradılmaqdadır" (1).

## Əsas məzmun

Təhsilin keyfiyyəti özündə bir çox məsələni ehtiva edir. Bu baxımdan bu mövzu hər zaman aktual bir mövzu olmuşdur. Xüsusilə də, hazırda bir çox ali təhsil müəssisəsinin təhsilə "bazar münasibətləri" fonunda baxdığı bir dövrdə bu məsələyə diqqət yetirilməsi daha vacib hesab edilməlidir. Tələbələrə gələcəyin mütəxəssisi kimi baxılmalı, təlimin keyfiyyəti, yəni hər bir dərsin, öyrənilən mövzunun və materialın səviyyəsi diqqət mərkəzində olmalıdır. Sinif otaqları müasir standartlara uyğun avadanlıqlarla təmin edilməli və dərslər tam hazırlıqlı şəkildə keçirilməlidir. Müəllimlər həm nəzəri, həm də metodik hazırlıqlarını göstərməyi bacarmalıdır. Şagirdlərin idrak fəallıqları və müstəqilliyi təmin edilməli, təşəbbüskarlıq təşviq olunmalıdır. Tələbənin biliklərinin və həyat bacarıqlarının qiymətləndirilməsində mexaniki əzbərçilikdən çəkinilməli, əksinə, tədris materialının şüurlu şəkildə mənimsənilməsinə və dərsdə şagirdlərin aktiv iştirakına önəm verilməlidir.

Təhsil sistemində keyfiyyətin idarə edilməsi mühüm yer tutmalıdır. Bu, açıq şəkildə göstərir ki, təhsilin keyfiyyəti idarəetmə obyektidir. İdarəetmənin effektivliyi təhsili idarə edənlərin pedaqoji təhlilin metodikasına necə yiyələnməsindən asılıdır. Pedaqoji təhlil düzgün aparılmazsa, bu halda vəziyyəti düzgün qiymətləndirmək, gələcək addımları düzgün müəyyənləşdirmək və yaranmış problemin optimal həlli yollarını tapmaq çətin olar. Vaxtında və lazımi səviyyədə aparılmayan təhlil idarəetmənin sonrakı mərhələlərində yanlış hərəkət etməyə, fəaliyyətin məqsədini və planını düzgün müəyyənləşdirməməyə, əsassız qərar və ya proqram qəbul etməyə gətirib çıxara bilər. Təhsilverənin təlim prosesində motivasiyası da mühüm aspektdir. Çünki motivasiyasız təlim təhsildə nəticə əldə olunmasını çətinləşdirir.

Bütün bunların təşkil edilməsi ilk növbədə ali təhsilin layihələndirilməsini vacib edir. Təhsilin layihələndirilməsi üçün elə bir metodologiya hazırlanmalıdır ki, təhsilin vacib göstəricilərindən biri onun nəticələri ilə ölçülsün. Yəni təhsil fəaliyyətinin effektivliyi tədris planının məzmunu, təhsil müddəti və ya prosesin təşkili ilə deyil, tələbənin əldə etdiyi biliklər, dünyagörüşü, praktik yararlılığı, sərbəst təhsil alma və özünütəhsil bacarıqları kimi göstəricilər əsasında qiymətləndirilməlidir. Bu yanaşmada əsas diqqət təhsil prosesinə yönəldilməli və onun tələbələrin peşə və şəxsi hazırlıq səviyyəsini artırmağa xidmət etməsi təmin edilməlidir.

Ali təhsildə keyfiyyət isə təhsil prosesinin şəffaf təşkili, diplom və ixtisas dərəcələrinin qarşılıqlı qəbul edilməsi, sənədlərin müqayisə oluna bilməsi, kadrların əmək bazarında rəqabətə davamlı olması və işə götürənlərin tələblərinə cavab verən peşə bacarıqlarına sahib olmaları kimi meyarlarla müəyyən edilir. Bu keyfiyyətlər ali təhsil müəssisələrində tədris prosesinin düzgün təşkilindən, öyrədənlə öyrənən arasındakı münasibətlərin tənzimlənməsindən və tələbələrin sərbəst öyrənmə bacarıqlarını inkişaf etdirmək imkanlarından asılıdır. Həmçinin təhsil xidmətləri bazarında artan rəqabət şəraitində yüksək keyfiyyətli kadr hazırlığına xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə, təhsilin keyfiyyəti sosial və şəxsi gözləntilərin əldə edilmiş nəticələrlə uyğunluğunu əks etdirir. Təhsil anlayışına iki əsas yanaşma mövcuddur: onu həm nəticə (savadlılıq) kimi, həm də öyrətmə prosesi kimi qəbul etmək. Hər iki yanaşmada təhsilə təsir edən əsas amillər idarəetmə qurumları, təhsil müəssisələri, təhsil proqramları, öyrənənlər və öyrədənlərdir. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi isə bu siyahıya sifarişçiləri və təhsil xidmətlərindən istifadə edənləri də əlavə etməyi tələb edir. Bu, əsasən fərdləri, istehsalatı, cəmiyyəti, dövləti və təhsil sistemini əhatə edir.

Əsas məsələ «nəyi və kimi qiymətləndirmək» sualını dəqiq müəyyənləşdirməkdir. Yəni qiymətləndirmə obyektlərini və kriteriyalarını dəqiqləşdirmək vacibdir. Əgər bu obyektlər və subyektlər müəyyən edilibsə, qiymətləndirmə tam təhsil sistemini və onun elementlərini əhatə edir. Bu proses adətən dövlət orqanları tərəfindən həyata keçirilir və nəticədə müxtəlif qiymətləndirmə variantları meydana çıxır. Təcrübədə isə qiymətləndirmə əsasən iki formada - daxili və xarici qiymətləndirmə kimi aparılır.

"«Keyfiyyət» anlayışı uzun müddətdir filosoflar arasında geniş müzakirələrə səbəb olmuş və bu mövzuda vahid fikir formalaşmamışdır. Buna baxmayaraq, müasir fəlsəfi ədəbiyyatlarda «keyfiyyət» anlayışını izah etməyə cəhdlər edilmişdir. Məsələn, keyfiyyət "əşyanın xassələrinin mahiyyət çərçivəsində sabit külliyyatı" kimi müəyyənləşdirilir. Bu, əşyanın elə bir xüsusiyyətidir ki, yalnız həmin əşyaya və ya bu tip əşyaların aid olduğu qrupa xasdır (2). Fəlsəfi kateqoriya olaraq keyfiyyət, bir predmeti digərindən prinsipcə fərqləndirən xüsusiyyətlər və müəyyənliklər məcmusu kimi xarakterizə edilir. Rus alimi V.M. Polonskiy təhsilin keyfiyyətini təhsil alanların bilik və bacarıqlarının, həmçinin əqli, fiziki və mənəvi inkişaflarının təhsil müəssisəsinin planlaşdırdığı məqsədlərə nə dərəcədə uyğun gəldiyi ilə izah edir (3). Onun yanaşmasından görünür ki, pedaqoq təhsilin keyfiyyətini öyrənənlərin əldə etdiyi təlim nailiyyətləri ilə əlaqələndirir. Digər rus pedaqoqları M.M. Potaşnik və A.M. Moiseyev isə öz araşdırmalarında təhsilin keyfiyyətini məktəbin nailiyyətlərinin əsas göstəricilərindən biri kimi vurğulayırlar. Onlar bunu məktəbdaxili idarəetmə prosesinin mühüm istiqaməti və əsas təşkilati məsələsi kimi təqdim edirlər. Həmçinin, alimlər təhsilin keyfiyyətini şagirdlərin, cəmiyyətin və sifarişçilərin tələblərinə cavab verən nəticələrin spesifik xüsusiyyətləri kimi dəyərləndirməyi təklif edirlər (4).

Bir qədər əvvəl təhsilin keyfiyyətinin yüksəldilməsi üçün onun layihələndirilməli olduğuna diqqət çəkdik. Layihələndirmə zamanı müəllimin təhsilalana olan münasibəti ön plana çıxmalıdır. Bundan əlavə təhsil prosesində təhsilverənin öz işini yüksək səviyyədə qura bilməsi üçün "planlı iş görməsi" önəmli faktordur. Burada, təbii ki, söhbət təhsilin məzmununun planlaşdırılmasından getmir. Müəllimin qarşısındakı "şəxslərə" olan münasibətini planlaşdırmasından gedir. Bu zaman keyfiyyət və planlaşdırma anlayışları bir-birinin davamı kimi qiymətləndirilir.

Təhsilin keyfiyyətinin planlaşdırılması, idarə olunması və ölçülməsi aşağıdakı amillərdən irəli gələn aktuallıqla səciyyələnir:

- Məzunlarda sistemli təfəkkürün formalaşmasının vacibliyi.
- Əmək bazarının müstəqil, yaradıcı və tənqidi təfəkkürə malik kadrlara olan tələbatı.
- Tələbələrin məsuliyyət hissinin artırılmasının əhəmiyyəti.
- Təhsil müəssisələri arasında artan rəqabət mühiti.

Təhsilin keyfiyyətinin artırılması və bu prosesdə İKT-nin geniş tətbiqi UNESCO-nun tövsiyələrində də öz əksini tapır:

**1. Milli təhsil idarəetmə qurumlarına tövsiyələr**: Yeni keyfiyyət meyarları tətbiq edilsin, cəmiyyətin sürətli dəyişikliklərinə uyğunlaşa bilən mütəxəssislərin hazırlanması üçün onlara geniş biliklər və zəruri bacarıqlar verilsin. Bu bilik və bacarıqlar müasir standartlara uyğun şəkildə qiymətləndirilsin.

**2. Fasiləsiz təhsilin təşviqi**: Ali təhsil sahəsində xidmətlərin spektri genişləndirilsin və yetkinlərin

fasiləsiz təhsilə cəlb edilməsi təmin edilsin. Bunun üçün distant, qiyabi, açıq təhsil formalarının və İnternet əsaslı təhsil texnologiyalarının imkanlarından daha səmərəli istifadə edilsin.

Qeyd etdiklərimizin düzgün reallaşdırıla bilməsi üçün ali məktəblərdəki təhsilin keyfiyyəti müəyyən meyarlarla ölçülməli və əldə olunan nəticələrə əsasən (ehtiyac olarsa) yeni iş planı işlənib hazırlanmalıdır.

Gələcək mütəxəssislərdə (burada istənilən sahə üçün pedaqoji kadr hazırlığı xüsusi mövqe tutmalıdır – K.S.) kreativ bilik və bacarıqların inkişafı, xüsusilə mühəndislik, texnika və təbiət-riyaziyyat sahələrində kadr hazırlığında böyük əhəmiyyət kəsb edir. Bu yanaşma nəticəsində elmi-texniki və texnoloji problemləri orijinal şəkildə həll etmək, mövcud texniki həllərdən yaranan nöqsanları və ziddiyyətləri aşkar etmək, onları düzəltmək və yeni innovasiyalar yaratmaq mümkün olur (5).

Hazırda ölkəmizdə bu istiqamətlə planlaşdırılmış və mütəmadi işlər həyata keçirilir. Bunun üçün Elm və Təhsil Nazirliyinin nəzdində “Təhsildə Keyfiyyət Təminatı Agentliyi” fəaliyyət göstərir ki, bu agentlik həm orta məktəblərdə, həm ali təhsil müəssisələrində təhsilin keyfiyyətinə nəzarət edir. Agentlik, eyni zamanda, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirir.

Ali məktəblərin fəaliyyətini qiymətləndirmək və təhsilin keyfiyyətini ölçmək üçün aparılan akkreditasiyalar iqtisadiyyat termini ilə desək, “müştəri cəlb etmək üçün” də önəmli faktordur. Xüsusilə də, hazırda bir çox özəl ali təhsil müəssisələri bu kimi yoxlama prosesinin nəticəsində tələbə qəbulunu həyata keçirir. Belə ki, bu sistem gələcəyin tələbərinə ali təhsil müəssisəsini seçməyə kömək edir. Çünki akkreditasiyada akdemik heyət, ali məktəbin sosial fəaliyyəti, cəmiyyətin sosial maraqlarına cavab vermə kimi bir çox məsələlər yoxlanılır.

**Nəticə**

Yekun olaraq vurğulamaq lazımdır ki, təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsi, keyfiyyət meyarlarının müəyyənləşdirilməsi və təkmilləşdirilməsi bu sahədə səmərəliliyin artırılması və yüksək nəticələrin əldə edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu prosesin formallıqdan uzaq, obyektiv və qərəzsiz şəkildə aparılması vacibdir. Bu kontekstdə insan faktoru həmişə əsas yer tutur və prosesin mərkəzində dayanır.

Aparılan tədqiqatlar və öyrənilmiş qabaqcıl pedaqoji təcrübənin analizi göstərir ki, təhsilin keyfiyyəti siyasi, mədəni və iqtisadi kontekstlərdə kompleks bir sistem kimi təhsilin vəziyyəti haqqında məlumat əldə etməyə imkan yaradır. Keyfiyyət, əldə olunan nəticələrin müəyyən edilmiş standartlara uyğunluğunu ortaya qoyan bir ölçü vasitəsidir.

## ƏDƏBİYYAT

1. Hacıyeva T. Monitorinq qiymətləndirmə və təhsilin keyfiyyəti. https://edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/cisishlar/monitorinq-ve-qiymetlendirme-tehsilin-keyfiyyeti.pdf
2. Введение в философию: Учебник для вузов. М.: Политиздат, 1990.
3. Поташник М.М. Управление качеством образования. М.: Педагогическое общество России, 2001.
4. Поташник М.М., Моисеев А.М. Управление современной школой. М.: Новая школа, 1997
5. Əhmədov İ. Təhsildə planlaşdırma və keyfiyyət nədir? Azərbaycan müəllimi, 4 iyul, 2014, s.8

Bu iş Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə yerinə yetirilmişdir - Qrant № AEF-MCG-2022-1 (42)-12/12/5-M-12

***ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri**
***Filologiya elmləri doktoru, dosent***
***E-mail: samedovakonul74@mail.ru***

**Konul Samadova**

**CONCEPT OF QUALITY IN HIGHER EDUCATION**

In recent times, many education experts have placed special emphasis on the concept of "quality" in education. This focus is not accidental. Quality in education represents the preservation of the fundamental values and ideals of educational institutions. This includes the free dissemination of knowledge and the independent pursuit of truth. Various measures are being implemented to enhance the quality of education: an academic evaluation commission has been established in Europe, and international scientific conferences and symposiums are organized in various countries, including our own. Drawing on global experience and the successful practices of our educational system in the past, efforts are made to improve the content of education, prioritize quality management, optimize the learning process, and enhance the training of pedagogical staff.

**Keywords:** *Quality in higher education, proportionality of quality and quantity, education management, academic performance, high-standard higher education*

**Конуль Самедова**

**КОНЦЕПЦИЯ КАЧЕСТВА ВЫСШЕГО ОБРАЗОВАНИЯ**

В последние годы многие специалисты в области образования особо подчеркивают значение понятия «качество». Это внимание не случайно. Качество в образовании означает сохранение основных ценностей и идеалов образовательных учреждений, включая бесплатное распространение знаний и независимый поиск истины. Для повышения качества образования предпринимаются различные меры: в Европе создана комиссия по академической оценке, в разных странах, включая нашу, организуются международные научные конференции и симпозиумы. Основываясь на мировом опыте и методах работы, успешно применявшихся в нашей образовательной системе в прошлом, совершенствуется содержание образования, уделяется особое внимание управлению качеством, оптимизируется учебный процесс и улучшается подготовка педагогических кадров.

**Ключевые слова**: *качество в высшем образовании, соотношение качества и количества, управление образованием, академические показатели, высшее образование высокого стандарта.*

*Filologiya üzrə fəlsəfə doktoru Firudin Rzayev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 25.02.2025**
**Son daxilolma tarixi:18.03.2025**